Elm: xüsusi buraxılış .- 2025.-18 noyabr (№36-37).- S.20.

## *Allaberdi Aşirov:*

# "Azərbaycan-Türkmənistan elmi-mədəni əlaqələrinin inkişafında yeni səhifə açılıb"

**Azərbaycan-Türkmənistan elmi-mədəni əlaqələrinin inkişafında yeni səhifə açılıb. Türkmənistan və Azərbaycan xalqlarının tarixi dərin köklərə və eyni adət-ənənələrə malikdir. Elmi əlaqələrimizin möhkəmlənməsində akademik İsa Həbibbəylinin mühüm xidmətləri vardır.**



Bu sözləri Türkmənistan Elmlər Akademiyasının prezidenti akademik Allaberdi Aşirov AMEA-nın Rəyasət Heyətində Akademiyanın 80 illik yubiley tədbirinin İkinci sessiyasında çıxışı zamanı deyib.

"Ötən il böyük türkmən şairi Məxtumqulu Fəraqinin 300 illik yubileyi UNESCO tərəfindən, o cümlədən Azərbaycanda da qeyd olundu. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən şairin "Divanı" Azərbaycan dilinə tərcümə olunaraq çap edildi, "Məxtumqulu Fəraqi və Azərbaycan ədəbiyyatı" mövzusunda beynəlxalq elmi konfrans keçirildi. Böyük sevgi və ehtiramın nəticəsi kimi həmin mərkəzi həm də Türkmənistan mədəniyyət və ədəbiyyat mərkəzi hesab edirik.

Əminəm ki, AMEA və Türkmənistan Elmlər Akademiyası arasında əlaqələr daha da möhkəmləndiriləcək, yeniliklərə və innovasiyalara imza atılacaq. Mən 80 illik yubiley münasibəti ilə AMEA əməkdaşlarını, alimləri və şəxsən İsa Həbibbəylini təbrik edirəm", - deyə akademik Allaberdi Aşirov vurğulayıb.